*Füzulinin işğalından 23 il keçir*

# Füzulililər Ali Baş Komandanın əmrini gözləyirlər

Ölkəmizin gözəl diyarlarından biri olan Füzuli rayonu ən qədim tarixə malikdir. Bu qədim yurdun ərazisindəki Azıx mağarası ilk insan yaşayış məskəni kimi dünyada məşhurdur. Azərbaycan torpağı minilliklər boyu müxtəlif hadisələrin şahidi olub. Ötən əsrin əvvəlində olduğu kimi sonunda da Azərbaycanın əzəli Qarabağ torpaqlarında minilliklərin yaşıdı və şahidi maddi-mənəviyyət abidələrimiz şovinizmin və erməni daşnaqlarının çirkin siyasətinin qurbanına çevrildi. Keçmiş SSRİ-nin beynəlmiləlçilik bayrağı altında həyata keçirilən bu çirkin siyasət nəhayət, XX əsrin 80-cı illərin sonlarından sonra açıq-aşkar özünü göstərdi. Məqsəd təkcə Azərbaycan ərazilərini işğal edərək etnik təmizləmə siyasəti aparmaq deyildi. Buradakı əcdadlarımızın yadigarları və tariximizin alt qatlarına məxsus maddi-mədəniyyət abidələrimizi məhv etmək, əsrlərin Azərbaycan tarixinə aid izini itirmək, saxtalaşdırmaq ermənilərin əsas niyyəti idi.

Yuxarıda haqqında söhbət açdığımız Füzuli rayonu qonşu İran İslam Respublikası ilə həmsərhəd ərazidə yerləşir. Onun əsası 1827-ci ildə qoyulmuş və ilk adı Qarabulaq olmuşdur. 1930-cu ildə Sovet hakimiyyəti bir sıra digər yaşayış məntəqələrimizin adını dəyişdirdiyi kimi Qarabulağa da «əl gəzdirdi». Onu inkişaf etdirmək əvəzinə adı dəyişdirilərək Qaryağın qoyuldu. Bu qondarma adı rayon 1959-cu ilə qədər daşımağa məcbur oldu. Lakin Qaryağın adı uzun müddət davam edə bilmədi. Böyük söz ustadı Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə rayonun adının dəyişdirilərək Füzuli adlandırılması təkcə Füzulisevərlərin deyil, xalqımızın sevincinə səbəb oldu. Axı, qərib ellərdə məzarı qalan böyük ustadın—M. Füzulinin daha çox haqqı çatırdı ki, Qarabağ ellərindən biri onun adını daşısın. Beləliklə, 1959-cu ildə Füzuli rayonu yarandı

Dünya üçün maraqlı görünən Azıx mağarasından əla- və Füzuli də Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra tarixi mədəni abidələr də var. Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il). Aşağı Veysəllidə hamar daşlardan tikilən gülləvari Mirəli türbəsi.(XV əsr), eyni zamanda tariximizin dərin qatlarından soraq verən məscidlərimiz mədəniyyətimizi təsdiqləyən tutarlı faktlar olmuşdur. Təəssüf ki, erməni vandalizminin qurbanlarına çevrilmiş tarixin bu baş salnaməsinin sonrakı taleyi bizə məlum deyil. Digər işğal olunmuş rayonlarımızın ərazisindəki kimi, burada da daşnak tör-töküntüləri tarixmemarlıq abidələrinə divan tutmuş, müqəddəs ziyarətgahları yerlə-yeksan etmişlər. Rayonun işğal altında qalıb talan olunan, təkcə yuxarıda adlarını qeyd etdiyimiz tarixi və mədəni memarlıq abidələri deyil. Rayonun ərazisi 1386 kv. km, əhalisi 105 min nəfərdən çoxdur. Füzulidə bir şəhər, bir şəhər tipli qəsəbə, 75 kənd və digər yaşayış məntəqəlri var. İşğala qədər, yəni 23 avqust 1993-cü il tarixədək rayonda 70 kitabxana, 20 mədəniyyət evi 45 klub, xalq və dövlət dram teatrları 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri zözhrəvi xəstəlikləri dispanseri 20 kinoqurğu, texnikum, 2 texniki-peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və digər obyekitlər var idi. 1988-ci ildən başlayan erməni təzavüzünə qarşı barışmaz mübarizə aparan Füzuli əhalisi doğma torpaq uğrunda çox itgi verib. Müharibənin bu ərazidə əsas ağırlığını rayonun Vağlı, Qacar, Divanıllar, Yuxarı və Aşağı Veysəlli, Arış Cuvarlı, Güzdək, Cəmilli, Üçbucaq, Mollavəli kəndlərinin əhalisi çəkib. 1100 nəfərdən çox şəhid, yüzlərlə itkin vermiş Füzulidə də gün 1500-ə yaxın əlil və şikəst də Qarabağın qaytarılması uğrunda hər an döyüşlərə atılmağa hazırdır və onlar Ali Baş Komandanın əmrini gözləyirlər.

**Aslan CƏLİLOV.**



*«Qəbələ» Park-Bulvar istirahət kompleksindən bir görünüş.* Foto S. Umuyevindir.

# Vətəndaşların nəzərinə!

Azərbaycan Respublikası Daxili İşlər naziri, general-polkovnik cənab Ramil Usubov tərəfindən 27 avqust 2016-cı il tarixində Şəki şəhərində bölgə üzrə vətəndaşların qəbulunun keçirilməsi nəzərdə tutulur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı Qəbələ Rayon Polis Şöbəsinə müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar 19 avqust 2016-cı il tarixinədək Qəbələ Rayon Polis Şöbəsinə müraciət edərək qeydiyyatdan keçməlidirlər.

**Ünvan:** Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 141.

**Əlaqə telefonu:** (024) 205-18-28.

# ELAN

Asan imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən Asan imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsi ilə www.asxm.gov.az/potal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa Vergilər Nazirliyinin 195-1 Çağrı mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə (www.taxes.gov.az/www.taxes/faq/sual.html) və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi.**

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiysı tərəfindən 25 iyun 1998-ci il tarixdə 11 saylı qərarla Bum qəsəbə (kənd) sakini **Qaragözov Həmdiyə Əziz oğlunun və ailə üzvlərinin** adına verilmiş JN: 256 A nömrəli (kodu 40800038) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiysı tərəfindən 27 dekabr 1997-ci il tarixdə 29 saylı qərarla Ziring kənd sakini **Əkbərova Bağdagül İslam qızının və ailə üzvlərinin** adına verilmiş JN: 121 A nömrəli (kodu 40606028) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiysı tərəfindən 29 noyabr 1997-ci il tarixdə 26 saylı qərarla Zarağan kənd sakini **Gülməmmədova Safurə Məhəmməd qızının** adına verilmiş JN: 197 G nömrəli (kodu 40608018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiysı tərəfindən 15 may 1998-ci il tarixdə 09 saylı qərarla Həmzəli kənd sakini **Cəbiyev Rza Abdulla oğlunun və Cəbiyeva Şəfiqə Qasım qızının** adına verilmiş JN: 0095 nömrəli (kodu 40605018) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Şəki Baş Dövlət Yol Polisi RQJ tərəfindən 2013-cü ildə Qəbələ rayonu Mıxlıqovaq kənd sakini **Hacıyev Nihat Məzahir oğlunun** adına verilmiş «VAZ 2107» markalı, **36 BT 585 dövlət nömrə nişanı** və **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

Sirt Yengicə kənd sakini **Mehdiyev Rəfail Telman oğlunun** adına verilmiş **sürücülük vəsiqəsi, şəxsiyyət vəsiqəsi, avtomaşının texniki pasportu, sığorta sənədi, texniki talonu** itdiyi üçün etibarsız sayılır.

*Məsul katib*
*N. R. Atakişiyev.*

*TƏSİSÇİLƏR:*
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**

**ÜNVANIMIZ:**
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 1800.
Oxucu məktubları geri qaytarılmır.